# HÜSEYNOV VÜQAR TOFİQ OĞLU



Hüseynov Vüqar 20 iyun 1969-cu ildə Cəbrayıl rayonunun Daşkəsən kəndində dünyaya göz açmışdır. 1976-cı ildə Daşkəsən kənd məktəbinə getmiş və 1986-cı ildə Bakıda 14 saylı texniki peşə məktəbində elektrik-qaynaqçı ixtisasına yiyələnmişdir. 1987-ci ildə hərbi xidmətə çağırılan V.Hüseynov daxili qoşunlarda xidmət etmişdir. 1989-cu ildə hərbi xidmətini başa vuraraq, Binəqədi Neft və Qazçıxarma İdarəsində elektrik qaynaqçısı kimi əmək fəaliyyətinə başlamışdır. Erməni qəsbkarlarının törətdikləri cinayətlərə dözə bilməyən Vüqar 1990-cı ilin oktyabrında DİN-nin xüsusi təyinatlı polis dəstəsinə yazılmışdır. O, Xocalıda, Goranboyda uğurlu döyüş yolu keçmişdir. Çaykənddə rəşadətlə vuruşmuşdur. Goranboy rayonunun bir sıra kəndlərinin erməni işğalından azad edilməsində qəhrəmanlıq göstərmişdir. Şəhid jurnalist Salatın Əsgərovanın qatillərinin tapılmasında da onun böyük xidməti olmuşdur. 1991-ci il iyulun 20-də ermənilər böyük qüvvə ilə Goranboy rayonunun Buzluq kəndinə hücuma keçmişdilər. O, döyüş yoldaşları ilə birlikdə düşməni geri oturtmağı bacarsa da, özü həlak olmuşdur. Doğulduğu Daşkəsən kəndində dəfn edilmişdir. SSRİ rəhbərliyi tərəfindən ölümündən sonra “Qırmızı ulduz” ordeni ilə təltif edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı Fərmanı ilə Hüseynov Vüqar Tofiq oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. 1992-ci ildən təhsil aldığı Cəbrayıl rayon Daşkəsən kənd orta məktəb onun adını daşıyır.